Aile birləşməsi

## Viza məlumat vərəqəsi

Qərarın qəbul edilməsi üçün ərizə forması İsveçrədəki müvafiq dövlət orqanına göndəriləcəkdir. Səfirlik yalnız icazənin gəlməsindən sonra ailə birləşməsi üçün viza verə bilər.
Vizanın veilməsinə dair qərarın 8-12 həftə çəkə biləcəyini nəzərə alaraq öncədən viza üçün müraciət edilməsi məsləhət görülür.

İsveçrə səfirliyi əlavə məlumatları tələb etmək hüququnu özündə saxlayır.

Isveçrəyə daxil olduqdan sonra, hər bir şəxs 14 gündən gec olmayaraq və bütün hallarda əmək fəaliyyətinə başlamadan öncə, miqrasiya orqanlarında qeydiyyatdan keçməlidir.
.

**Tələb edilən sənədlər:**

- ☐ Tam şəkildə doldurulmuş və ərizəçi tərəfindən şəxsən imzalanmış viza üçün ərizə forması.
- ☐ Etibarlı pasportun orijinalı və surəti (1-ci, 2-ci və viza və ya möhür olan bütün səhifələrin sürəti).Pasport planlaşdırılmış qalma müddətindən azı 3 ay müddətinə etibarlı və son 10 ildə çap olunmalıdır.
- ☐ Yaxın vaxtlarda çəkilmiş 3 ədəd ağ fonda fotoşəkil (veb-saytda izahata baxın).
- ☐ Viza xidmətləri ödənişi: viza şöbəsində nağd şəkildə və ancaq Azərbaycan manatı ilə 60 Avronun müvafiq məzənnəsinə uyğun ödənilir və 6 AZN göndərilməyə görə.
- ☐ Ən geci 6 ay əvvəl tərcümə edilmiş (İsveçrə dillərindən birinə) və notariusda təsdiq edilmiş və üzərində apostil olan nigah haqqında şəhadətnamə və 2 ədəd surəti.
- ☐ Ən geci 6 ay əvvəl tərcümə edilmiş (İsveçrə dillərindən birinə) və notariusda təsdiq edilmiş və üzərində apostil olan doğum haqqında şəhadətnamə və 2 ədəd surəti.
- ☐ Həyat yoldaşınıza məxsus İsveçrə pasportunun, yaşayış icazısinin və ya şəxsiyyət vəsiqəsinin 3 surəti.
- ☐ Daxili işlər nazirliyindən ən geci 6 ay əvvəl verilmiş cinayət məsulliyyətinə dair arayış və onun İsveçrə dillərindən birinə notarial qaydada təsdiq edilmiş tərcüməsi və 2 ədə surəti.
- ☐ Ən geci 6 ay əvvəl verilmiş yaşayış yerindən arayış onun ingilis dilində notarial qaydada təsdiq edilmiş surəti. 3 ədəd. (Şəxsiyyət vəsiqəsinin surəti yetərli deyil)

*Ümumi məlumatlar və qeydlər*

*Ərizə forması və əlavə sənədlər ərizəçi tərəfindən Səfirliyə **şəxsən** Bazar ertəsindən Cümə axşamına qədər, saat 09.00-dan 12.00-a qədər növbə almaqla təqdim edilməlidi. 12 yaşa qədər uşaqlar üçün ayrıca növbə almağa ehtiyac yoxdur. Nəzərə alın ki, **viza üçün ərizə ancaq bütün lazımi sənədlər tam şəkildə təqdim edildikdə qəbul olunur.***

*Növbə www.swiss-visa.ch saytı vasitəsi ilə təyin edilir. D vizası üçün ərziə formasının onlayn qeydiyyatı mümkün deyil. Səfirlik heç bir **kənar** qurum və ya xidmət göstərən təşkilatlarla əməkdaşlıq etmir.*

www.eda.admin.ch/baku səhifəsində ərizə forması və məlumat vərəqəsi ilə tanış ola bilərsiniz.



Opening Hours Visa Desk: MO-TH 09.30-11.30
Böyük Qala 9, Old City
AZ-1004 Baku / Azerbaijan
Telephone: +994 12 437 38 50, Fax: +994 12 437 38 51
bku.vertretung@eda.admin.ch, www.eda.admin.ch/baku